# Səmimi misralar, dolğun fikirlər...

## (Fərahim Səmədzadənin "Tələsən illər" kitabı haqqında)

"Şeir nədir, şair kimdir" sualına min illərdir ki, insan övladı müxtəlif səpkili cavablar söyləyib. Kimisi şeirin ilahi bir duyğu olduğunu dilə gətirir. Bəziləri isə sadəcə bunun daxili zərurətdən yarandığını sübut etməyə çalışır.



*İmran AXUNDOV,*
*fəlsəfə doktoru*




Mən də təxminən bu fikirlərə uyğun olaraq bildirirəm ki, şeir insan taleyinin tərcümanıdır. Şairlik ürəklə baş-başa verməkdir. Həyatı, dünyanı, gözəlliyi, təbiəti, günəşi, ayı ulduzları, gül-çiçəyi hamının gördüyündən fərqli görməkdir. Şairlikdə şəxsi qazanc yoxdur, əksinə şair ömrü yaşamaq təlatümlərdən, ağrılardan, gərginlikdən keçir. Şairlər sevincini, kədərini, narahatlığını, hansısa yazı forması ilə ifadə edir, bu yazıların çoxu da şeirlə yazılır. Şair həm də yazdığı yazılarla öz xarakterini, daxili aləmini, şəxsiyyətini aşkara çıxarır.

Əlbəttə, bu şeir deyilən duyğu hər kəsdə eyni cür alınmır. Kimsində bir qədər zəif, kimsində isə daha poetik, oxunaqlı olur. İnsafən demək lazımdır ki, bu gün şeir bolluğunda yaşayırıq, bu baxımdan korluğumuz yoxdur. Ancaq bir məsələ var ki, biz şeiri təkcə özümüz üçün yazmırıq axı. Oxucu zövqünü, şair urvatını, diri və duru saxlamalıyıq. Nə yaxşı ki, elin gözü tərəzidir, yaxşını yamandan şeçməyi bacarır.

Bu gün çoxları deyir ki, indi kitaba, şeirə maraq göstərən yoxdur. Sosial şəbəkələr şeir oxumaq vərdişini unutdurub. Mən isə qəti o cür düşünmürəm. İnsanlar yayın istisində harda sərin su varsa tapıb içdiyi kimi, gözəl şeirə də o cür tapınadır. Əsl şairlər zamanın təbəddülatlarla dolu gedişatına həm insanlıq, vətəndaşlıq baxımından, həm də şair kimi müdaxilə edir. Haqsızlığa, ədalətsizliyə, ayrı-şeçkiliyə, məmur özbaşınalığına və bu kimi saysız-hesabsız neqativ hallara etiraz edəndə, xalqın dərdlərini şeir dilində danışanda istər-istəməz oxucu haqq şairi kimi onu bəyənib, rəğbət bəsləyir.

Bu baxımdan, həm bir oxucu kimi, həm də az-çox qələm adamı kimi deyirəm ki, Fərahim müəllimin şeirləri qənaətbəxşdir. "Bu da bir düşüncədir" adlı şeirlər kitabından sonra bu Fərahim Səmədzadənin sayca ikinci kitabıdır. Məlum məsələdir ki, yaradıcılıqda təkcə istedadla iş bitmir. İstedad zəhmətlə birləşəndə nəticə gözəl olur. Fərahim müəllim şeirdən-şeirə, kitabdan-kitaba daha da püxtələşir və ədəbiyyata gəlişinin təsadüfi olmadığını sübut edir. Elə əzəli-əbədi mövzular var ki, şair olmayanlar da həmin mövzularda heç olmazsa qələmini bir dəfə sınayıb. Ana, vətən, yurd sevgisi, məhəbbət, ayrılıq və sairlər bu qəbildəndir. Qeyd etdiyim mövzular barəsində minlərlə, milyonlarla şeirlər yazılıb. Əsas odur ki, bu mövzularda sən hansı təzə sözü deyə bilirsən? Bu baxımdan Fərahim müəllim üz ağardan şairdir. Onun şeirləri nəinki məni qane edir, həm də çox sevindirir. Hər kəsə məlumdur ki, insanın ən kövrək xatirələri uşaqlığı və doğulduğu yurd-yuva ilə bağlı olur və əgər o duyğulardan bəhs edən şairdirsə öz hiss və düşüncələrini daha poetik notlara kökləyir, cəmiyyətə ötürür. İndi gəlin görək şair bu mövzuda yazdığı şeirində nə deyir?

**Bir zamanlar burda mənim,**
**Yaxşı-yamanım var idi.**
**Qayalarda ayağ izim,**
**Daşda nişanım var idi.**

**Burda yanan od-ocağım,**
**Burda günəşdən sıcağım.**
**Burda bir isti qucağım,**
**Başda piranım var idi.**

**Xatirələr dodağlara,**
**Düşdü nəmli varağlara.**
**Rahim, heyif o çağlara.**
**Keşdi...zamanım var idi.**

Kifayət qədər tutarlı sətirlərdi. Hamıya doğma olan bu mövzuda da çoxlu şeirlər oxumuşam. Fərahim müəllim də, fərqli və təsirli yazıb.

F. Səmədzadənin həyata baxışı insanlıqla süslənib. Ancaq nəzərə alsaq ki, şairlər haqsızlıq görəndə qəzəbli, üsyankar, səmimilik, həqiqət, dürüstlük görəndə isə körpə uşaq kimi kövrək olurlar. Zəmanənin eybəcərliyi, insan azğınlığı, hərislik, ədalətsizliklə bağlı yazılarında da şair oxucunun üreyini fəth etməyi bacarır:

*Dedilər səbr eliyən halva yedi, biz yemədik.*
*Kef olar gələn bahar, hamı dedi, biz demədik.*

*Yeməyə bal da olar, ət də olar, yağ da olar,*
*Hərənin ev-eşiyi, istəsə lap bağ da olar.*
*Nə azar, nə xəstəlik? həp canımız sağ da olar,*
*Yeyərik gen-boluna, keyfi-damağ çağ da olar.*
*Nə yazıq ki dedilər, yeyən yedi, biz yemədik,*
*Kef olar gələn bahar, hamı dedi, biz demədik.*

*Birisi dalda kəsir, tərəzidə, malda kəsir,*
*İtə qulluğ eliyən, yalaq tutan yalda kəsir,*
*Birisi darvazada, o birisi yolda kəsir.*
*Gedəndə sağda kəsir, qayıdanda solda kəsir.*
*Kəsdiyin aldı yedi, satdı yedi, biz yemədik,*
*Yalanı düz yerinə qatdı dedi, biz demədik.*

Fərahim Səmədzadənin bir şair kimi mövzu coğrafiyası geniş və əhatəlidir. O cəmiyyətin sosial problemlərə zamanında müdaxilə etməyi də bacarır. İnsanların şəhərlərə sürətlə axını, yurd yerlərinin sahibsiz və yetim qalması bu günümüzün ən narahat problemidir. Şair bu ağrılı mövzuda da özünəməxsus, oxucunu düşünməyə vadar edən ifadələr işlədib:

*Bir gün yolum düşdü o doğma yurda,*
*Çöhrəmi çən aldı, üzüm ağladı.*
*O gilli-palçıqlı küçələrində,*
*Ləpirim ağladı, izim ağladı.*

*Baxıram hər tərəf sükut içində.*
*Evlər eyni boyda, eyni biçimdə.*
*Bu kəndin şəhərə köçhaköçündə,*
*Bulaqlar qurudu, gözüm ağladı.*

*Hərarəti yoxdu, isti görünmür.*
*Nənələrin şəsti-bəsti görünmür.*
*Təndirəsər yanmır, tüstü görünmür.*
*Ocaqda qaralmış közüm ağladı.*

Şair məhəbbət mövzuları ilə də oxucularına pozitiv enerji ötürə bilir və onları öz sevgi şeirlərinin cazibəsində saxlamağı bacarır. Fərahim müəllimin daha bir üstünlüyü ondadır ki, o yaradıcılığında xalq deyimlərindən, zəngin folklorumuzdan yerli-yerində istifadə etməyi bacarır. Standart, şablon ifadələri yaxına buraxmır:

**Çəkilmir gözümdən rəsmin, surətin.**
**Xəlvəti çağlayan bulağam indi.**
**Səni unutmağım çətindən çətin.**
**İçimdə alışan ocağam indi.**

**Yaxud:**

**Bilirsənmi sevmək nədi?**
**Gəl sənə sevmək öyrədim,**
**Həsrətin odu məndədi.**
**Həsrəti silmək öyrədim.**
**Gəl, sənə sevmək öyrədim.**

**Məhəbbət iman yoludur,**
**Rövzeyi-rizvan yoludur,**
**Canana qurban yoludur,**
**Bu yolda ölmək öyrədim,**
**Gəl, sənə sevmək öyrədim.**

Fərahim Səmədzadə qələmini ədəbiyyatımızın Qəzəl janrında da sınaqdan keçirib. İnsafən demək lazımdır ki, bu sahədə də istəyinə nail olmağı bacarıb. O, qəzəllərində dünyanın faniliyindən və bu dünyadan insana yalnız yaxşılığın yadigar qalacağından bəhs edir:

***Nəzər etməzsə xuda, ol kainat tutmaz qərar,***
***Nə zimistanı gedər, nə yaz olar, nə nobahar.***

***Rəng ilə, ahəng ilə, qurdu nizami-intizam,***
***Bir gözəl cazibədə vəhdət eylədi iqtidar.***

***Sevgini izzət ilə verdi əmanət bizlərə,***
***Söylədi aşiqlərə, bu eşq ilə etmə bazar.***

***Kainatı dərk üçün, faili-muxtar elədi,***
***Verdi sevdiklərinə Quranı, elmi yadigar.***

***İltimasım var sənə, ey ulu tanrım Rahimi,***
***Kərəmindən binəsib eyləmə, lütfindən kənar.***

Şairin müxtəlif səpkili şeirlərindən kifayət qədər nümunələr gətirə bilərəm, ancaq buna çox da ehtiyac duymuram. İnanıram ki, oxucular bu kitabı da rəğbətlə qarşılayıb, sevə-sevə oxuyacaqlar.

Mənə elə gəlir ki, şairlərə, qələm adamlarına uzun-uzadı tərcümeyi-hal yazmaq lazım deyil. Elə onların qələmindən qopan hər xırda şeir parçası kimliyini aşkara çıxarır. Sonda mən Fərahim Səmədzadənin yeni kitabının işıq üzü görməsi münasibəti ilə ürəkdən təbrik edirəm, ona möhkəm can sağlığı, bol-bol yaradıcılıq uğurları arzulayıram. Sözünüz rəvan, ruhunuz hər zaman cavan olsun.